*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 33-39* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.33*

# Bəxtiyar Vahabzadənin poeziyasında istiqlal motivləri

**Hicran Nəsibova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: hijran.nasibova @gmail.com
ORCID: org/0009-0008-1460-6915

**Annotasiya.** Məqalədə görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin poeziyasında milli-azadlıq, istiqlal motivləri araşdırılır. Göstərilir ki, 1960-1980-ci illər yazdığı şeir və poemalarında Bəxtiyar Vahabzadə dövrün ehkamlarına qarşı dayanırdı. Müxtəlif təzyiqlərə məruz qalsa da, öz əqidəsindən dönməyən Bəxtiyar Vahabzadənin həyat amalı vətənin azadlığı, bütövlüyü uğrunda çalışmaq idi. Gətirilən şeir nümunələri şairin ictimai-siyasi fəallığı və mövqeyini aydın ifadə edir. Şair yazılarında bəzən hadisələri ya xarici ölkələrə, ya da tarixə köçürməklə demək istədiklərini demiş və xalq da həmişə onu anlamışdır. O, vətən övladlarını Sovetlər İttifaqının saxta azadlığına üsyan etməyə çağırırdı. Vətəndaşlıq qeyrətini hər şeydən üstün tutan Bəxtiyar Vahabzadə hesab edirdi ki, şair "həqiqətin müğənnisi", "təbiətin danışan dili", "cəmiyyətin üsyan səsi", "zəmanənin, əsrin vicdanı", "tarixlərin şərəfi, şanı", "həqiqətin güzgüsü" və s. olmalıdır.
1980-ci illərdə ölkəni bürüyən xaos içində çürüməkdə olan Rus imperiyasının "Qarabağ kartı" xalqı hiddətləndirdiyi bir zamanda B.Vahabzadə susmadı. O öz poeziyası ilə "savaş meydanında istiqlal və azadlıq əsgəri oldu". Yaşar Qarayevin dediyi kimi, Bəxtiyar Vahabzadə poeziyasında Azərbaycan xalqı özünüdərketmə yolu keçmişdir.
**Açar sözlər:** Bəxtiyar Vahabzadə, poeziya, azadlıq, vətən, inqilab, istiqlal

**Məqalə tarixçəsi:** göndərilib – 26.11.2025; qəbul edilib – 05.12.2025

# Independence motifs in Bakhtiyar Vahabzadeh's poetry

**Hijran Nasibova**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: hijran.nasibova@gmail.com
ORCID: org/0009-0008-1460-6915

**Abstract.** The article explores the themes of national liberation and independence in the poetry of the prominent Azerbaijani poet Bakhtiyar Vahabzadeh. It is shown that in his poems and poetic works written during the 1960s-1980s, Vahabzadeh stood against the ideological dogmas of his time and became a poetic symbol of national awakening. Despite various pressures, he never abandoned his convictions, dedicating his life to the struggle for the freedom and unity of his homeland. The poetic examples analyzed in the article vividly reflect Vahabzadeh's civic position, patriotic spirit, and national worldview. The poet often transferred events to historical contexts or foreign lands as a means of expressing his ideas indirectly, and his readers always understood his intended message. He opposed the false freedom of the Soviet regime, calling upon the sons of the homeland to rise up for liberty and independence. According to Bakhtiyar Vahabzadeh,

a poet must be "the singer of truth," "the speaking voice of nature," "the rebellious cry of society," "the conscience of the age," and "the honor and glory of history."
In the chaotic atmosphere of the 1980s, when the "Karabakh card" played by the decaying Russian Empire provoked the people's anger, Vahabzadeh did not remain silent – through his poetry, he became a "soldier of freedom and independence." As Yashar Garayev noted, in Bakhtiyar Vahabzadeh's poetry, the Azerbaijani people underwent a process of self-realization.
**Keywords:** Bakhtiyar Vahabzadeh, poetry, freedom, homeland, revolution, independence

**Article history:** received – 26.11.2025; accepted − 05.12.2025

## Giriş / *Introduction*

Görkəmli alim-ədəbiyyatşünas Yaşar Qarayev yazırdı: "Bütövlüyün, vəhdətin izini, bəlkə də, sənədlərdən silmək olar, amma yaddaşlardan, sümükdən, qandan yox" [9, s.447]. Bu xalqın qan yaddaşından silinməyən müqəddəs Vətən duyğularını ifadə edən "böyük bir həsrət ədəbiyyatı"nın yaranmasında rolu olan – Azərbaycan dərdlərini çox ustalıqla əsərlərində göstərmiş və bununla da nəsillərin qan yaddaşının düzgün formalaşmasına layiqli örnək olan şairlərimizdən biri də Bəxtiyar Vahabzadədir. Totalitar rejimin müxalifində dayanan, hər bir sözün qarşısına sipər çəkilən dövrlərində Azərbaycan poeziyasının cəsarətli çıxışları B.Vahabzadə şeirlərində də öz pafosu etibarı ilə dövrün ehkamlarına qarşı dayanırdı. Müxtəlif təzyiqlərə məruz qalsa da, öz əqidəsindən dönməyən B.Vahabzadənin həyat amalı vətəninə sədaqət, onun azadlığı, bütövlüyü uğrunda çalışmaq idi. Şairin ictimai-siyasi fəallığı, mövqeyi şeirlərində aydın görünürdü. Təqiblərin ən qatı vaxtlarında belə, şair ağrı-acını, ah-naləni qəbul etməyib, onun sözü, onun səsi, sənəti həmişə öz xalqının harayı olmuşdur.

## Əsas hissə / *Main Part*

Bəxtiyr Vahabzadənin məşhur İran şairinə yazdığı "Səhəndə məktublar", "Vüsalda hicran" və s. şeirləri diqqət çəkir. B.Vahabzadə cənublu qələm dostuna onun şeirlərini göz yaşları ilə oxuduğunu bildirir:

*Yazdın eyni dərdi yaşayaq bahəm,*
*Qardaş qardaşıyla həmfikir olar.*
*Sənin düşüncəndi mənim düşüncəm,*
*Dərdlər bir olanda fikir bir olar.*
*Deyirsən yarıya bölünənlərin*
*Dərdini dünyada bir bilməyən yox.*
*Biz də bölünmüşük,*
*Ancaq bu dərdi*
*Uca kürsülərdən heç bir deyən yox.* [6, s.31]

1968-ci və 1971-ci illərdə yazılmış bu şeirlər dövrün xüsusiyyətlərini aydın əks etdirir. Bəxtiyar Vahabzadə yollarını göstərməsə də, qəti hərəkətlərin vacib olduğunu görür və üsyankar bir mövqe tutur:

*Hanı*
*- Sormadılar –*
*Bəs yarı canın?*
*Niyə ucaltmırsan üsyan səsini?*

*Hələ görməmişik Azərbaycanın*
*Bir yerdə, bir bütöv xəritəsini...* [8, s.35]

Onun 1981-ci il yanvarın 23-də ustad Şəhriyarla telefon söhbəti münasibətilə yazdığı “Eyni yaşdayıq” şeiri uzaqgörənliyini, xalqının taleyi uçün narahatlığını, həssaslığını ifadə edir. Ustadın şairlərdə görmək istədiyi ən yaxşı keyfiyyətlərin məhz onun özünə də xas olmasına oxucu inanır:

*Birlikdən savayı bir qəsdimiz yox,*
*Bizim o günlərə öz haqqımız var.*
*Bir böyük torpağın iki oğluyuq*
*Orda Şəhriyaram, burda Bəxtiyar.* [8, s.32]

Azərbaycan torpağını toxunulmaz görmək arzusu xoş niyyət olaraq qalmır. Şair xalqın milli qurtuluşu naminə səylərin birləşdirilməsini vacib hesab edir. Azərbaycan lirikasının görkəmli nümayəndələri Nəbi Xəzri, Hüseyn Arif, Cabir Novruz, Fikrət Qoca xalqımızın milli xarakterinin ən ağrılı cizgilərini, Araz, Cənub dərdini dərindən duymuş və bu hisslərin bədii inikası üçün xeyli səy göstərmişlər. Xalqın qan yaddaşının varisliyinin təyin olunmasında həmin sənətkarların rolu misilsizdir. Hüseyn Arifin [4, s.42-44] “Bakıdan Təbrizəcən”, “Araz sahilində”, “Təbrizim”, “İkiyə bölünmüş bir tayfayıq biz”, Cabir Novruzun [2, s.82-85] “Yuxumda o taya keçdim bu gecə”, “Mən sərhəd görmüşəm, Fikrət Qocanın [3, s.21-22] “Dünyadan bir Araz axır” və s. şeirləri milli xarakterimizə həkk olunmuş həsrət lövhələri barədə dolğun təsəvvür verir. Adları qeyd edilən əsərlərin ümumi cəhəti – onların gələcəyə inamı möhkəmləndirməsində, oxuculara nikbinlik ruhunu aşılamasındadır.

Vətən, xalq uğrunda savaşa qalxan oğulların azadlıq ruhunun odunu sönməyə qoymayan B.Vahabzadə poeziyası olub. Onun başıbəlalı “Gülüstan”dan sonra yazdığı “Ağlar-güləyən”(1962), “Yollar-oğullar (1962-63), “Həyat-Ölüm” (1964-65), “Təzadlar” (1966-67), “Amerika gözəli” (1982), “Mərziyə” (1984), “Bağışlayın, səhv olub” (1985), “Ləyaqət” (1986) poemaları, Nəsimiyə həsr olunmuş “Fəryad” (1984) pyesi, habelə “Latın dili”, “Neo”, “Dan yeri”, “Şanyan deyir”, “Külək-ot”, “Qarağac”, “Ələddin çırağı”, “Baba gur-gur”, “Atılmayan toplar” və s. şeirlərində Y.Qarayevin dediyi kimi, Azərbaycan xalqı öz keçmişini, tarixini dərk edə-edə, özünə qayıda-qayıda istiqlala, azadlığa nail olmaq cəsarətini qazanmışdır.

B.Vahabzadə hadisələri ya xarici ölkələrə, ya da tarixə köçürməklə demək istədiklərini həmişə demiş və xalq da, gənclik də həmişə onu anlamışdır. Məsələn “Ağlar-güləyən”də Sabirin dilində deyir:

*Xalqların cərgəsində*
*Mən də varam deyirəm!*
*Bu dünyadan özümə*
*Ədalət istəyirəm...* [6, s.139]

Vətən övladlarını qeyrətə səsləyən şair “Təzadlar” poemasında da başqa xalqın taleyi işığında doğma xalqının taleyini düşünürdü:

*Qardaşı qardaşa düşmən edibdir*
*Bir ana torpağın iki məsləki.*
*Bir böyük məmləkət qanammıram mən*
*Saxta kağızlara necə büküldü?* [6, s.249]

Şair “Təzadlar”da “Azadlığa qılınc çəkib, azadlıq adından danışan ölkə”, – deyəndə Sovetlər İttifaqının saxta azadlığına üsyan edirdi.

İrili-xırdalı bir çox əsərində sovet sisteminin törətdiyi cinayətlərə bu və ya digər şəkildə toxunan şair II Dünya müharibəsində Moskvadan Berlinədək yol keçmiş 416-ci diviziyanın döyüş

rəşadətindən danışan “416” poemasında göstərir ki, Faşist Almaniyasındakı Buhenvald kimi ölüm düşərgələrinin məhz 1937-ci ildə salınması faktı, eyni ildə SSRİ-də xüsusilə şiddətlənən repressiyalarla üst-üstə düşür. Dəhşətlərinə görə Buhenvalddan geri qalmayan rejim haqda eyhamlar vurmaqla, onların arasında heç bir fərq olmadığını rəmzi şəkildə göstərir. Bu poemada Azərbaycanın həm keçmişi, həm də indiki dərdlərini ayrıca səsləndirən notlara rast gəlmək mümkündür, “yad evində çıraq kimi yanan” millətin buyur deyə-deyə, qonağı ev sahibi etməsinin acı nəticəsindən, “özgəyə qulluq edən beyinlərin əsərlərinin özgənin olmasından yana-yana danışan şair xalqı başa salır ki, sənin çəkdiyin əməyin bəhrəsi özgənindir. Hələ 1965-ci ildə yazdığı “Həyat-ölüm”adlı poemasında da Vətəninə, elinə azadlıq istəyən, xalqının səadəti üçün səadətindən keçən, öz əcdadını, öz tarixini, öz nəğməsini, dilini sevən dillərə qıfıl vurulduğundan üsyan edən qəhrəmanına alqış deyən şair yazırdı:

*Sənin nitqin bir dəniz,*
*Hər cümlən azadlığın*
*Bir dəli dalğasıdır.* [6, s.232]

Vətəndaşlıq qeyrətini hər şeydən üstün tutan ustad hesab edirdi ki, şair “fikirlərin çarpışan seli”, “həqiqətin müğənnisi”, “təbiətin danışan dili”, “cəmiyyətin üsyan səsi”, “zəmanənin, əsrin vicdanı”, “tarixlərin şərəfi, şanı,” “bu dünyaya zamanın sözü”, “həqiqətin, haqqın güzgüsü” və s. olmalıdır. Bütün bunlar yaşlı nəslin müdrikliyi, uzaqgörənliyi, gənc nəslin cəsarəti, gələcəyə inamı sayəsində poeziyamızda təsdiqlənirdi. Artıq 1980-ci illərdə Azərbaycan poeziyasının “Araz çay”ına yeni bir “sel”, yeni bir “qol” qarışırdı ki, B.Vahabzadənin səsi daha əzmli qarışmış oldu bu selə.

Ölkəni bürüyən xaos içində çürüməkdə olan Rus İmperiyasının “Qarabağ kartı” xalqı hiddətləndirdiyi bir zaman dövrün hərcmərcliyini B.Vahabzadə belə ifadə edirdi:

*Yalanlar həqiqət qiyafəsində,*
*Oğrular, əyrilər zəmanəsində,*
*Əyrilik sayılır fərasət, allah!* [9, s.137]

Qarabağın üzərində dolanan tufanı görən şair həyəcanlı, təlatümlü xalqın səsinə səs verib etirazını, üsyanını ifadə edərək yazırdı:

*İndi daha döyüşürəm dözümlə,*
*Öz əlimlə özümədir bu həmlə.*
*Dözüm bitdi, qorxuram ki, özümlə*
*Qədərimin arasına qan düşə.* [9, s.126]

Xalqının azadlığı uğrunda haqq səsini ucaldan cəsarətli oğulların “dəli dalğaları”nın coşub-daşmasının labüdlüyünü şair təsdiqləyir və Vətənin azadlığı uğrunda boyunlarını edam kəndirinə keçirməyə hazır olan igidlərsiz azadlığın mümkün olmadığını bildirirdi. B.Vahabzadə öz poeziyası ilə “savaş meydanında istiqlal və azadlıq əsgəri olur və poeziya da ona yalnız “İstiqlal” adlı ünvana, mənzil başına aparan cığır, yol kimi lazım olur. Daha doğrusu, millətin azadlığını milli poeziyanın böyük idealına o illərdə hamıdan çox Bəxtiyar Vahabzadə çevirir” – [7, s.5] deyən Yaşar Qarayev bir daha təsdiqləyir ki, B.Vahabzadə poeziyasında Azərbaycan xalqı özünüdərketmə yolu keçib.

Göründüyü kimi, 70-ci illər lirikasında şair “mən”inin vətəndaşlıq bağlantısı lirik qəhrəmanın kövrək aləminə bir böyüklük ehtirası, ucalıq arzusu gətirmişdir. Bu lirikada şəhərin bir daşı üçün narahatlıq duyğusu ilə, qəlbini doğma şəhəri isti yuva etmək təşnəsi eyni ovqatda tərənnüm olunurdu. Həmin cəhət göstərir ki, bu illərdə lirik “mən”in görüm və duyum palitrası rəngarəng idi. 60-80-ci illərin lirikasında təsvirlə tərənnüm, vəcdlə düşüncə, həyəcanla fikir qovuşur, bu qovuşuqda isə gözəlliyi duyan və onun taleyi üçün narahatlıq keçirən lirik qəhrəmanın xarakteri formalaşırdı. Poeziyamızda lirik qəhrəmanın mənəvi fəallığı şair qəlbinin narahatlıq meyarı kimi

poetikləşir. Keçdikləri narahat həyat və ömür yolunda nikbin tragizmini dərk etmək, detalda ümumi ovqatın rəmzini görmək, rəngdə təbiəti tapmaq, zamanın təzadları üzərində düşünmək, adidə qeyri-adini duymaq bu dövr lirikasını səciyyələndirən poetik və estetik əlamətlər idi. Həmin əlamətlər R.Rza, Ə.Kərim, B.Vahabzadə, M.Araz, F.Qoca, N.Həsənzadə, Ə.Salahzadə, R.Rövşən və başqa imzalarla təmsil olunan fəlsəfi-intellektual üslubi təmayülün orijinallığını təmin edə bildi. Bu təmayül zəka ilə qəlb, duyğu ilə fikir arasındakı emosional və psixoloji fərqləri dəf edərək insan şəxsiyyətində adiliyin qeyri-adiliyini aşkara çıxarırdı. Çünki bu lirika intellektin həyat tərzinə bütöv müraciət edirdi. Bu baxımdan B.Vahabzadənin lirik özünüifadə tərzi xüsusi maraq doğurur. Bu özünüifadədə şair "mən"i təzadların dərkində meydana çıxır:

*Durmuş, duracaq üz-üzə yer-göy*
*Zidiyyət çıxır meydana hər şey*
*Nurun gücü zülmətdə bilinmiş*
*Elminki cəhalətdə bilinmiş*
*Qəm olmasa, şadlıq da bilinməz*
*Zəncirsiz azadlıq da bilinməz*
*Vəhdətdə birəm,*
*hicrdə yüzdüm*
*Bir yolda min illik dağa dözdüm*
*...Dünya özü əksiylə də vəhdətdədi məndə*
*Nəşəm də doğur dərdi-qəmimdən*
*Ziddimdə tamam, bir bütövəm mən.* [8, s.160]

Beləliklə, şair ziddiyyətləri ömrü ikiləşdirən qüvvə kimi yox, bütövlüyün vəhdəti kimi mənalandırır. Şairin öz "mən"inə, şəxsiyyətinə sadiq qalması onun mənəvi bütövlüyü üçün başlıca şərtdir. B.Vahabzadə yaşaya-yaşaya yaşamayanları ittiham edir, oxşarlıqda fərdiyyəti qorumağı, inam və amalı "bəlkə"lərin şübhə havasında qorumağı lirik qəhrəmanın poetik məqsədi kimi mənalandırır. "İçimdəki vuruşlarım ömür yolum, tale ilə yarışlarım mübarizəmdir", – deyən şair sükunəti ölümə bərabər tutur, ona qarşı mübarizəni insan ömrünün amalı hesab edir. Zəmanəmizin görkəmli sənətkarı, türk dünyasının fəxri Çingiz Aytmatov şairin yaradıcılığını səciyyələndirərək yazır: "Bizi əhatə edən aləmdə hər nə varsa şairi dərindən düşündürür: xeyir və şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə, insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtirası Bəxtiyarın fitrətindədir. Mütəfəkkir sənətkarın, ustad şairin başılca qayəsi, uğuru da bundadır" [1]. Azərbaycan tənqidində "narahat şair" (Mehdi Hüseyn), "yüksək əməl şairi" (Mirzə İbrahimov) kimi tanınan B.Vahabzadənin lirik qəhrəmanı, onun şair "mən"i üçün səciyyəvi xüsusiyyət inam, amal və əqidə uğrunda dönmədən mübarizə aparmaqdır. Bu, klassik Azərbaycan poeziyasının orta əsr ənənələri ilə bağlı bir xüsusiyyətdir. Təsadüfi deyil ki, sonralar B.Vahabzadə amalından dönməzlik simvolu olan İ.Nəsimiyə həsr olunmuş "Fəryad" mənzum dramını qələmə aldı. Fəryad əslində şairin lirik aləmindən, şair "mən"indən, iç dünyasından gələn və onun poeziyasına tragizm aşılayan bir səsdir. Burada şairin bütün yaradıcılığı boyu izlədiyi köklü bir problem – etiqad və zəkanın münasibəti fəlsəfi şəkildə həll olunur.

## Nəticə / *Conclusion*

Beləliklə, bu müxtəsər mülahizələrdən bir daha aydın oldu ki, müəllif "mən"i, lirik özünüifadə həqiqi poeziya üçün vacib şərtlərdəndir. Bunlar əslində lirika üçün həlledici sayılan subyektivliyin təzahür formalarıdır. Lakin bu subyektivlik göydən asılı olmayıb, gerçək həyati məzmuna malikdir. Bəxtiyar Vahabzadənin lirikası belə bir həqiqəti təsdiq etdi ki, poeziyada ən təbii yol özünü təsbitdir, çünki bu, əslində insanın özünüdərkindən başlanır. Onun lirikası üçün

vüsətli bir polifonizm xarakterikdir. Həmin polifonizm hələ 60-cı illərdə vətəndaşlıq poeziyasından, vətəni dünya kontekstində dərk etmək meylindən başlanmışdır. Şübhəsiz ki, istər şair "mən"i, istərsə də bilavasitə onu poetik tərzini davam etdirən və tamamlayan lirik özünüifadə bilavasitə lirikada insan konsepsiyasının izahı ilə bağlıdır. Hələ 60-cı illər ərəfəsində yaşamaq, ömür sürmək anlamlarına yeni məna verən poeziya, çətin, mürəkkəb zəmanədə yaşamağı fədakarlıq kimi mənalandırırdı. B.Vahabzadənin "Ömür" şeirindəki misralar bu dövr lirikasının axtarışları üçün simvolik başlanğıc idi:

*Yaşamaq – yanmaqdır, yanasan gərək*
*Həyatın mənası yalnız onadır*
*Şam, əgər yanmırsa, yaşamır demək*
*Onun yaşamağı – yanmağındadır.*

1960-80-ci illər lirikasında "yaşamaq" mövcud olmağın sinonimi deyil, həyatı bütün gözəlliyi, təzadları ilə qavramaq və dərk etmək, zamanın üzərində mənəvi hökmdarlıq üsulu idi. Poeziya iyirmi ildən artıq belə yaşamağı insan adını doğrultmaq kimi dərk, izah və təbliğ etdi. Bəxtiyar Vahabzadə lirikasında belə yaşamaq uğrunda mübarizə millətin özünüdərkinə gətirib çıxardı, totalitarizmə, imperiya köləliyinə milli etiraz həmin mübarizənin ümumxalq forması kimi milyonları meydanlara, toplara və tanklara qarşı çevirdi.

### **Ədəbiyyat /** ***References***


1. Aytmatov Ç. Yaradıbdır inam məni... – "Azərbaycan gəncləri", 20 avqust 1983.
2. Cabir Novruz. Seçilmiş əsərləri, 2 cilddə, I c. – Bakı: Yazıçı, 1982.
3. Fikrət Qoca. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1988.
4. Hüseyn Arif. Seçilmiş əsərləri, 2 cilddə, I c. – Bakı: Yazıçı, 1985.
5. Qarayev Y. Tarix – yaxından və uzaqdan. – Bakı: Sabah, 1966.
6. Vahabzadə B. Fəryad. – Bakı: Azərbaycan, 1995.
7. Vahabzadə B. Körpü çaydan uzaq düşüb. – Bakı: Azərbaycan, 1996.
8. Vahabzadə B. Seçilmiş əsərləri, 2 cilddə, II c. – Bakı: Yazıçı, 1984.
9. Vahabzadə B. Vətəndaş. – Bakı: Gənclik, 1994.


## Мотивы независимости в поэзии Бахтияра Вахабзаде


**Хиджран Насибова**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: hijran.nasibova@gmail.com
ORCID: org/0009-0008-1460-6915



**Резюме.** В статье исследуются мотивы национального освобождения и независимости в поэзии выдающегося азербайджанского поэта Бахтияра Вахабзаде. Показано, что в своих стихах и поэмах 1960-1980-х годов Вахабзаде выступал против идеологических догм своего времени, став поэтическим символом национального пробуждения. Несмотря на различные давления, поэт не отступил от своих убеждений, посвятив жизнь борьбе за свободу и единство Родины. Приведённые поэтические примеры ярко отражают гражданскую позицию, патриотизм и национальное мировоззрение поэта. Иногда, перенося события в историческую плоскость или на иностранную почву, он выражал свои мысли в аллегорической форме, и народ всегда понимал его послание. Поэт выступал против ложной свободы советского режима, призывая сынов Родины к борьбе за независимость. По мнению

Бахтияра Вахабзаде, поэт должен быть «певцом истины», «говорящим голосом природы», «бунтарским криком общества», «совестью эпохи» и «честью истории».
В хаосе 1980-х годов, когда «карабахская карта» разрушающейся Российской империи вызывала народное возмущение, Вахабзаде не остался равнодушным – своей поэзией он стал «воином свободы и независимости». Как отмечал Яшар Гараев, в поэзии Бахтияра Вахабзаде азербайджанский народ прошёл путь самопознания.
**Ключевые слова:** Бахтияр Вахабзаде, поэзия, свобода, родина, революция, независимость